Səh. 2 92 GÜNDƏN SONRA...
Səh. 3 PANDEMİYA VƏ TƏMİZLİK
Səh. 4 VAHİD MİLLİ İMTAHANLAR 6 İYULDA BAŞLAYIR VƏ 25 İYULDA BİTİR
Səh. 5 ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV VƏ GÜRCÜSTAN
Səh. 6 AĞ DEMOKRATİYANIN QARA ÜZÜ
Səh. 6 İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA
Səh. 7 CARİ İLDƏ MARNEULİDƏ 8 MƏKTƏB TİKİLƏCƏK, 3 MƏKTƏB TAM BƏRPA OLUNACAQ
Səh. 7 SARTİCALADA YENİ MEYVƏ SAXLAMA MÜƏSSİSƏSİNİN AÇILIŞI OLUB



İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUN
2020-Cİ İL
№006 (110)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## TİBBİ MASKA TAXA BİLMƏYƏNLƏR ARAYIŞ ALMALI OLACAQLAR



"Sağlamlıq vəziyyətinə görə tibbi maska taxa bilməyən Gürcüstan vətəndaşları müvafiq arayış almaq imkanı əldə edəcəklər". Bu barədə Gürcüstan parlamentinin Hüquqi məsələlər üzrə komitəsinin sədri Anri Oxanaşvili bildirib.

Komitə sədrinin sözlərinə görə, arayışla bağlı bütün tibb mərkəzləri artıq məlumatlandırılıb. O qeyd edib ki, arayış həmin vətəndaşların üzərlərində olmalıdır ki, onlara cərimə yazılmasın.

Qeyd edək ki, Gürcüstan parlamenti tibbi maska taxmamağa görə cərimələrin nəzərdə tutulduğu qanun layihəsini qəbul edib.

Qərara əsasən, qapalı ictimai yerlərdə tibbi maska istifadə etməyən fiziki şəxslər 20 lari cərimə olunacaq. İnsanların tibbi maskasız bu məkanlara daxil olmasına nəzarət etməyən hüquqi şəxslər isə 500 lari məbləğində cərimələnəcəklər.

İctimai nəqliyyat, metro və taksidə tibbi maskadan istifadə etməyənlər 20 lari məbləğində cərimələnəcəklər.

## GÜRCÜSTANDA 851 NƏFƏR KORONAVİRUSA YOLUXUB

Gürcüstanda koronavirusa 879 nəfər yoluxub. Bu barədə məlumat Gürcüstan hökumətinin yaratdığı www.stopcov.ge saytında yerləşdirilib.




Məlumata əsasən, ölkədə COVID-19 infeksiyasına yoluxanların 704-ü sağalıb, 14-ü isə dünyasını dəyişib.

Hazırda ölkə üzrə karantin rejimində saxlanılanların sayı 2710, həkim nəzarətində olanların sayı isə 267 nəfər təşkil edir.

## KÜTLƏVİ TƏDBİRLƏRLƏ BAĞLI QADAĞAYA ƏMƏL ETMƏYƏNLƏR CƏRİMƏLƏNƏCƏKLƏR



Toy, yas mərasimləri və digər bu kimi kütləvi tədbirlərin keçirilməsi iyulun 15-dək qadağan olunub. Bu barədə parlamentin Hüquqi məsələlər üzrə komitəsinin sədri Anri Oxanaşvili bildirib.

Onun sözlərinə görə, 10 nəfərdən çox insanın bir yerə toplaşması hallarında cərimələr tətbiq olunacaq.

"Bu cür pozuntular aşkar olunarsa, mərasimdə olan fiziki şəxsin hər biri 2 min lari, hüquqi şəxs isə 10 min lari məbləğində cərimələnəcək", - deyə A.Oxanaşvili bildirib.

Parlament üzvü vətəndaşlara müraciət edərək onları iyulun 15-dək heç bir kütləvi tədbir keçirməməyə çağırıb.

## GÜRCÜSTAN İYULUN 1-DƏN XARİCİ TURİSTLƏRİ QƏBUL ETMƏYİ PLANLAŞDIRIR



"Gürcüstan əcnəbi turistlərin cəlb olunması ilə bağlı Baltikyanı ölkələr, Polşa, Çexiya və Avstriya ilə danışıqlar aparır". Bu barədə baş nazir Giorgi Qaxaria jurnalistlərə açıqlamasında bildirib.

G.Qaxaria yaxın zamanlarda müvafiq qərarlar qəbul ediləcəyini deyib.

"Gürcüstan ilk növbədə koronavirusun az yayıldığı ölkələrdən turistlər qəbul etməyə hazırdır. Lakin vətəndaşların sağlamlığını təhlükə altına qoymamaq üçün olduqca düşünülmüş və ehtiyatlı addımlar atmalıyıq", - deyə baş nazir bildirib.

O, qeyd edib ki, İsraillə qarşılıqlı turist səfərləri ilə bağlı danışıqlar yekunlaşdırılmağa yaxın idi, lakin İsraildəki epidemioloji vəziyyət gözlənilmədən mürəkkəbləşdiyinə görə bu məsələnin təxirə salınmasına dair razılığa gəlinib.

Qeyd edək ki, Gürcüstan iyulun 1-dən xarici turistləri qəbul etməyi planlaşdırır.



# 92 GÜNDƏN SONRA...

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Xoş gördük, hörmətli oxucu. Mən bu yazını yazıramsa və Siz də oxuyursunuzsa, deməli vəziyyət elə də pis deyil. Düz 92 gün sonra yenidən görüşürük. Ölkədə tətbiq olunan karantin rejimi ilə bağlı olaraq 5 sayımızı hazırlaya bilmədik.

Bu 92 gün ərzində dünyanı gəzib dolaşan, sərhədləri aşaraq ölkəmizə də təşrif buyuran əlcəkli, maskalı arzuolunmaz qonaq hamımızı həyacanlanmağa, xof yaşamağa məcbur etdi. 14 həmvətənlimizin canını alan bu azar yayın istisindən kölgəliklərdə bir az dincəlmək üçün maskasını, əlcəyini soyunsa da hələ də qapı-qapı, kənd-kənd, şəhər-şəhər, ölkə-ölkə kabus kimi gəzməkdədir.

Yayın istisi, yaşılı, nemətləri özü ilə ümid gətirsə də, təhlükə hələ də sovuşmayıb, hələ yaydan sonra yağışlı, palçıqlı payız, şaxtalı, boranlı soyuq qış var qarşıda. Bir də ümid var... ümid həmişə var. Yenə də ümid edək ki, bu çətinliklərdən sonra yenidən çətinliklər yaşamayacağıq. Axı, hər çətinlikdən sonra bir asanlıq gələr (Quran 94:6)

Baxmayaraq ki, pandemiya dövrünün son sayını (15 mart, N005(109)) çap etsək də sizlərə vaxtında çatdıra bilmədik, daha doğrusu buna fiziki imkanımız olmadı, bundan sonra Allahın köməkliyi ilə qəzeti vaxtında əldə etməyiniz üçün əlimizdən gələni əsirgəməyəcəyik, hörmətli oxucu. Və bütün əgər-əskikliyimizə görə bizləri üzrlü saymağınızı rica edirik.

Qəzetlə bağlı, yeni yazarların kəşf edilməsi ilə bağlı, məktəblərlə bağlı bir sıra yeniliklər planlaşdırmışdıq ki, koronavirus imkan vermədi. Amma yenə də ümidvarıq ki, sentyabr ayında təhsil məktəblərdə davam etdiriləcək, koronavirus ümumiyyətlə yer üzündən yox olacaq və bizlər də sizlərin görüşünə yeni ideyalarla, yeni yazılarla, yeni nəfəslə gələcəyik.

Hələliksə nəfəsimizi tıncıxtıran maskaları taxıb, əllərimizi spirtləyib qaldığımız yerdən davam edirik.

Baxmayaraq ki, minlərlə insanın ölümünə səbəb oldu (olur), təəssüf ki, hələ də koronavirusun mövcud olmasına inanmayanlar var. Hələ də bunu ciddi qəbul etməyib oyun adlandıranlar var. Lap tutaq ki, oyundur, axı bu oyunun da udanı, uduzanı oldu.

Əsasən də Dunninq-Kruger sindromlular belə hallarda ortalığa çıxaraq özlərinin çürük konspiroloji fantasmaqoriyalarını həqiqət kimi insanlara sırımağa çalışır, şübhə toxumu səpir, məsuliyyətsizlik yayırlar.

Virusun daha çox yayıldığı, daha çox can aldığı ölkələr də məhz məsuliyyətsizliyin, inamsızlığın daha çox olduğu ölkələr oldu.

Təəssüf ki, hələ də əllərini dezinfeksiya edənlərə, tez-tez yuyanlara, tibbi maska taxanlara lağ edənlərlə doludur ətrafımız. Hələ də səhiyyə təşkilatlarının verdiyi tövsiyələri qulaq ardına vuranlar var. Axı belə hallarda vətəndaşlar daha çox məsuliyyətli olamlıdırlar. Maska taxmaqla adam ölməyib hələ, amma taxmamaqla ölənlər olub. Gərək hər şey zor gücünəmi tətbiq edilə, gərək cərimə ödəyək sonramı əməl edək?..

Bütün bu çətinliklərdən sonra bir asanlığın gəlməsini istəyiriksə verilən tövsiyələrə əməl etməli, qoyulan qaydalara ciddi yanaşmalı və məsuliyyətli, məsuliyyətli və yenə də məsuliyyətli olmalıyıq. Sağ və sağlam olun!

## UNICEF: GÜRCÜSTANDA 29 800 UŞAĞIN EVİNDƏ ƏLİNİ SU VƏ SABUNLA YUMAQ ÜÇÜN ŞƏRAİTİ YOXDUR



BMT-nin Uşaq Fondunun (UNICEF) araşdırmasına əsasən, Gürcüstanda 29 800 uşağın evində əlini su və sabunla yumaq üçün şəraiti yoxdur. UNICEF-in bəyanatına görə, belə ailələrdə yaşayan uşaqlar müvafiq şərait yaxud sanitar vasitələr olmadığına görə koronavirusun sürətli yayılmasından müdafiə oluna bilmirlər.

Sənəddə həmçinin Gürcüstanda 3-dən 17 yaşa qədər 50 400 uşağın evində internet və kompüterin olmaması da qeyd edilir. Araşdırmaya əsasən, elektron cihazların və internetin, evdə müvafiq təhsil mühitinin və validyenlərin dəstəyinin az olmasına görə təcrid olunmuş uşaqlar geri qalmaq təhlükəsi qarşısındadırlar. Uşaqlara, yeniyetmə və gənclərə internetin, oyun və təhsil imkanlarının əlçatanlığına keyfiyyətli internetin olmaması da mane olur.

"Biz həmin uşaqların və onların ailələrinin təhlükəsiz və kabelsiz su və sanitar şəraitlərinin, internet, kitablar və təhsil resurslarının olmasını təmin etməliyik", - BMT-nin Uşaq Fondunun Gürcüstandakı nümayəndəsi Hasan Xalil bildirib.

Onun sözlərinə görə, onlar Gürcüstanda əsas xidmətlərin gücləndirilməsi və hər bir uşaq üçün müvafiq mühitin yaradılmasında hökumətə dəstək olmağa davam edirlər.

## DƏMİR YOLU İLƏ SƏRNİŞİNLƏRİN DAŞINMASI BƏRPA OLUNUR

Hökumətin qərarına əsasən, iyunun 15-dən etibarən dəmir yolu ilə sərnişinlərin ölkədaxili daşınması bərpa olunacaq.

"Gürcüstan Dəmir Yolları" SC-dən bildirilib ki, sərnişinlərin təhlükəsiz daşınması təmin olunacaq.

Səhiyyə Nazirliyinin hazırladığı xüsusi qaydalara əsasən, sərnişinlər səfər müddətində tibbi maska taxmalı və sosial məsafə saxlamalı olacaqlar. Həmçinin qatarlara minən şəxslərin hərarəti ölçüləcək. Vaqonlarda əllərin dezinfeksiya edilməsi üçün xüsusi avadanlıqlar artıq quraşdırılıb.



Koronavirusa xas simptomları olan sərnişinlərin qatara minməsi qadağan olunacaq.

## YENİ SİYASİ PARTİYA YARADILIB

"Bizim Gürcüstan – Həmrəylik Alyansı" adlı yeni siyasi partiya yaradılıb. Partiyanın qurucuları parlamentin "Müstəqil deputatlar" fraksiyasının üzvləridir.

Yeni partiyanın baş katibi Mariam Caşi, sədri isə Beka Natsvlişvilidir.

Siyasi təşkilat bu ilin oktyabrında keçiriləcək parlament seçkilərində iştirak etmək niyyətindədir.

Təsisçilərin sözlərinə görə, "Bizim Gürcüstan – Həmrəylik Alyansı" qərarların liderlər komandası tərəfindən qəbul ediləcək yeni tip partiya olacaq.

Qeyd edək ki, "Müstəqil deputatlar" fraksiyası 2019-cu ilin noyabrında yaradılıb. Müxalif




mövqeli fraksiyada hakim "Gürcü arzusu" Partiyasının rəhbərlik etdiyi parlament çoxluğunu müxtəlif vaxtlarda tərk edən 6 deputat təmsil olunub.

## ÖLKƏDAXİLİ UÇUŞLAR BƏRPA OLUNUR

İyunun 15-dən etibarən Gürcüstanda daxili uçuşlar bərpa olunacaq. İlk olaraq Tbilisi - Batumi, Nataxtari - Mestia, Nataxtari - Ambrolauri istiqamətləri üzrə uçuşlar həyata keçiriləcək.

Qeyd edək ki, ölkədə beynəlxalq müntəzəm aviareyslərə məhdudiyyətlər iyunun 30-dək qüvvədədir.

## ÖTƏN AY GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ TƏŞKİLATI 400-DƏN ÇOX AZTƏMİNATLI AİLƏYƏ YARDIM PAYLAYIB



Ötən aylarda sərt karantin rejiminin tətbiqi ilə əlaqədar olaraq aztəminatlı ailələr unudulmamış, yardımsevər insanlar tərəfindən 400-dən çox ailəyə müxtəlif ərzaq məhsullarından ibarət bağlamalar verilmişdir.

Belə ki, Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı (GYMD) koronavirus pandemiyasının dünyada tüğyan etdiyi bu çətin günlərdə Türkiyədə fəaliyyət göstərən Aziz Mahmud Hüdayi Vəqfinin maddi dəstəyi ilə 9 və 10 may tarixlərində Tbilisi, Marneuli, Qardabani, Bolnisi və Tetricğaro (Ağbulaq) bölgələrində yaşayan aztəminatlı və ehtiyac sahibi olan 300-ə yaxın ailəyə Ramazan ayı münasibəti ilə ərzaq yardımı edib.

Təşkilat həmçinin 15 və 16 may tarixlərində Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığının (YTB) dəstəyi ilə Rustavi və Qardabanidə yaşayan imkansız və ehtiyac sahibi olan 120 ailəyə Ramazan sovqatı paylayıb.

GYMD-nin sədri Musa Hacıyevin bildirdiyinə görə, bu çətin dövrü nəzərə alaraq Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığının və Aziz Mahmud Hüdayi Vəqfinin dəstəyi ilə hazırlanmış ərzaq bağlamaları ötən illərlə müqayisədə daha zəngin olub. Həmçinin pandemiya səbəbi ilə bu il daha çox insana ərzaq yardımı edilib.

Təşkilat sədri edilən yardımlara görə həm təşkilat, həm də Gürcüstan xalqı adından Aziz Mahmud Hüdayi Vəqfinə və Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığına təşəkkürünü bildirib.




## TÜRKİYƏ SƏFİRİ QARDABANİDƏ OLUB



İyunun 5-i Qardabani bələdiyyəsinin icra başçısı Ramaz Budağaşvili və onun müavini Dünyamalı Hacıyev Türkiyənin Gürcüstandakı səfiri xanım Fatma Ceren Yazqan və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Tbilisi koordinasiya ofisinin nümayəndəsi ilə görüşüblər.

Tərəflər ikitərəfli gələcək planlardan və bələdiyyədə pandemiya şəraitində həyata keçirilən tədbirlərdən danışıblar.

Həmin gün Türkiyə tərəfi Qardabani bələdiyyəsində ehtiyacı olan insanlara yardım məqsədi ilə 100 ədəd ərzaq və gigiyena vasitələrindən ibarət bağlamalar verib.

## GÜRCÜSTAN VƏTƏNDAŞLARI MÜALİCƏ MƏQSƏDİ İLƏ TÜRKİYƏYƏ VİZASIZ GEDƏ BİLƏCƏKLƏR



Müalicə məqsədi ilə Türkiyəyə səfər edən Gürcüstan vətəndaşları viza almalı olmayacaqlar. Bu barədə Gürcüstanın Türkiyədəki səfirliyinin yaydığı müraciətdə bildirilib. Müraciətə əsasən, xəstə ilə birlikdə yalnız iki nəfər şəxs ölkəyə buraxılacaq.

İlk növbədə xəstə və yaxud onu müşaiyət edən şəxs müalicə almaqla bağlı razılıq əldə etmək üçün Türkiyənin müvafiq klinikasına müraciət etməlidir.

Xəstəni müşaiyət edən şəxs Türkiyədəki müvafiq klinika ilə birgə Türkiyə Beynəlxalq Tibbi Xidmət Agentliyi "USHAŞ"-ın veb-səhifəsində (covid19st.ushas.com.tr) qeydiyyatdan keçməli və lazım olan sənədləri ora yükləməlidir.

İcazə aldıqdan sonra xəstə yaxud onu müşayiət edən şəxs müvafiq klinika ilə birgə nəqliyyat məsələsini planlaşdırmalıdır.

## PANDEMİYA VƏ TƏMİZLİK



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Öncəliklə aradan keçən uzun zamandan sonra hər birinizi xoş gördük.

Məlum olduğu kimi dünyanı öz cənginə almış koronavirus pandemiyası səbəbi ilə sizlərlə görüşə istəməsək də ara vermək məcburiyyətində qaldıq. Bu müddət ərzində istər dünyada, istərsə də ölkəmizdə bir çox hadisələr yaşandı. Bu vəziyyətə və hadisələrə səbr edib anlayış göstərənlər olduğu kimi, qəbullanmayanlar və üsyan edənlər də oldu.

Bu pandemiya nəticəsində demək olar ki, dünya iflic vəziyyətinə düşdü. Təhsil sistemi, istehsalat, ixracat, nəqliyyat durdu. İş yerləri bağlandı. Bu vəziyyətdə düşünməyə, ailəmizlə daha çox vaxt keçirməyə, araşdırmağa daha çox vaxtımız oldu.

Koronavirusla mübarizədə həkimlər daha çox maska taxmağı, əlləri tez-tez yumağı, mümkün qədər evdən çıxmamağı tövsiyə etdilər və bu gün də edirlər. Bu maddələrə istər dünyada, istərsə də ölkəmizdə demək olar ki, ən çox müsəlmanlar əməl etdilər. Çünki bu mövzuyla bağlı həzrət Peyğəmbərin "Bir yerdə vəba xəstəliyi çıxdığını eşitsəniz oraya girməyin, olduğunuz yerdə vəba xəstəliyi çıxarsa o bölgədən də ayrılmayın" hədisini əsas alan müsəlmanlar əmrə itaət göstərdilər. Bununla birlikdə müsəlmanlar insanlığı və ailələrini qorumağın məsuliyyətini dərk edərək qoyulan qanunlara əməl etməyə çalışdılar.

Mövzuyla bağlı toxunacağım digər xüsus isə həkimlərin tez-tez əlləri yumağı tövsiyə etmələri haqqındadır. Xatırlayırsınızsa bir müddət öncə bir yazımda bir yuyucu toz markasının reklamında səsləndirilən "kirlənmək gözəldir" şüarı haqqında yazmışdım. Yenə də həmin fikirlərimin üstündə dururam və buna qarşılıq olaraq həzrət Peyğəmbərin "Təmizlik imanın yarısıdır" hədisini söyləyirəm. Çünki hər gözəlliyin başı təmizlik, hər xəstəliyin başlanğıcı isə kirlilikdir.

Bədən və ruh sağlamlığının təməl şərti təmizlikdir. İnsanın yeyib-içdiyi qidaların, geydiyi paltarların, istifadə etdiyi əşyaların, içində oturduğu evinin və ətrafının pisliklərdən təmizlənməsi sağlam bir həyat üçün şərtdir. Təmiz insanın təbiəti gümrah, bədəni möhkəm olar. Hər gün kirli işlərlə məşğul olan insan çirklənər, kirə bulaşar. Bunlardan təmizlənməsi lazımdır. Çünki çirklilik, pislik müxtəlif xəstəliklərə səbəb olduğu kimi, insanların rahatlığını, hüzurunu da pozur.

Bəs nə üçün əllərin tez-tez yuyulması tövsiyə edilir? Əllər bədəndə ən çox çirklənən və mikroorqanizmlərlə ən çox təmas edən orqanlardır. Xəstəlik yaradan mikroorqanizmlər adamdan adama ən çox əllər yolu ilə bulaşmaqdadır. Bu səbəblə əllərin təmizliyinə çox diqqət göstərilməli və əllər mümkün olduqca çox yuyulmalıdır. Məsələn, yeməkdən əvvəl və sonra, kirli olduğu düşünülən yerlərə toxunduqdan sonra, tualetdən sonra, yuxudan əvvəl (uşağınız gecə əlini ağzına ala bilər), yuxudan oyanınca (uşağınız gecə əli ilə bədəninin bir bölgəsinə toxunmuş, ya da bir bölgəni qaşımış ola bilər) və çöldən evə gəldiyiniz zaman bol sabun və bol su ilə yuyunmalı, yaxşıca durulanmalıdır və mütləq qurulanmalıdır. Gigiyenik əl yumanın məqsədi əllər üzərində olan keçici bakteriyaların hamısını, qalıcı bakteriyaların isə bir qismini əllərdən uzaqlaşdırmaqdır.

Ən yaxşı əl yuma əməliyyatı bol sabun və bol su ilə, biləkləri də içinə alacaq şəkildə, ovuc içi, barmaq araları, barmaq ucları və xüsusilə dırnaq diblərini təmizləyəcək şəkildə olmalıdır. Yuyunduqdan sonra nəmli qalmaması (göbələk kimi mikroorqanizmlərin törəməsinə manеə törətmək üçün) çox əhəmiyyətlidir. Əllər kağız dəsmal, ya da normal bir dəsmal ilə barmaq araları, ovuc içi və bilәkləri də qurulayacaq şəkildə silinməlidir. Normal bir əl yuma müddəti sabunu götürdükdən sonra 10 saniyəlik bir köpürtmə əməliyyatını ehtiva edər. 10 saniyə boyunca sabun əldə qalmalı və əllər bolca köpükləndirilməlidir. Daha sonra yuxarıda da bəhs edildiyi kimi, əl bilәkləri, ovuc içləri, barmaq araları və dırnaq dibləri yaxşıca təmizlənərək əllər bol su ilə durulanmalı və əllərdə qətiliklə köpük qalmamalıdır.

İslam dininin təmizliyə verdiyi əhəmiyyətdən danışdıq. Bunun ən açıq nümunəsi də gündə beş dəfə namaz üçün dəstəmaz alınması, namaz qılınacaq yerin və paltarın təmiz tutulmasıdır.

Təmiz bir dünya, sağlam bir cəmiyyət ümidi ilə...

# VAHİD MİLLİ İMTAHANLAR 6 İYULDA BAŞLAYIR VƏ 25 İYULDA BİTİR – ABİTURİYENTLƏRİN İMTAHANDA ƏMƏL EDƏCƏYİ QAYDALAR HANSILARDIR?

**Vahid milli imtahanlar iyulun 6-sı başlayacaq və iyulun 25-i sona çatacaq.** Bu haqda hökumət administrasiyasında baş tutan mətbuat konfransında məlum olub.

Mətbuat konfransında imtahanların tarixləri ilə yanaşı koronavirus təhlükəsi ilə bağlı tələbələrin qorunmalı olduqları təlimatlar da təqdim olunub:

• İmtahan verən şəxslər və müşahidəçilər yalnız hər imtahan sektoru sahəsinin 50%-nə buraxılacaqlar.

• İmtahan mərkəzlərinin hər sektoruna bu il 10 nəfərdən artıq buraxılmayacaq.

• Hər masa ön tərəfdən şəffaf qoruyucu barierlə təchiz ediləcək.

• Masalar arasında eninə məsafə 2 metr, bir-birinin ardınca düzülmüş masalar arasında məsafə isə 1 metr olacaq.

• Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi hər imtahanda imtahan verənlərə tibbi maska (istəyi olduğu halda özləri gətirə bilər) təklif edəcək.

• Abituriyentlər imtahan mərkəzinin girişində termoskriningdən keçəcəklər.

**Abituriyentlər Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin müəyyən etdiyi sərt qaydalarla hərəkət etməlidirlər:**

• Sosial məsafəni maksimum dərəcədə qorumalıdırlar;

• İmtahan və imtahana qeydiyyat zamanı tibbi maskadan istifadə etməlidirlər;

• Tapşırılan halda əllərini dezinfeksiya məhlulu ilə təmizləməlidirlər.

Şəxsiyyət vəsiqəsi və imtahan kartını özləri ilə götürməlidirlər. İstədikləri halda tibbi maska, plastik qabda su və 0,5-0,7 mm qara rəngli diyircəkli qələm götürə bilərlər.

Bu sadalananlardan əlavə digər şəxsi əşyalar aparmaq tövsiyə olunmur ki, əşyalarla xəstəlik yaymaq riski maksimum azalsın.

İmtahandan qalmamaq üçün 37 dərəcə hərarəti qeydə alınacaq abituriyentlərə imtahan mərkəzindən alternativ təklif olunacaq.

İmtahan başlamazdan 2-3 gün əvvəl temperaturu olan və başqa respirativ əlamətlər, nəfəs çatışmamazlığı qeydə alınanlar imtahana buraxılmayacaq.

**Koronavirus təsdiqlənən abituriyentlər imtahanı gələn il verməli olacaq.**

Qeyd edək ki, test imtahanından əlavə koronavirusa görə formatda da dəyişikliklər planlaşdırılırdı. Dəyişikliklərdən biri kimi testlərə ikinci semestr materiallarının az dərəcədə daxil edilməsi müzakirə olunurdu. Ancaq Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi rəhbərin verdiyi bəyanatı qəbul etmədi.

Sopio Qorqodzenin ilk əvvəl bildirdiyinə görə, ikinci semestrin proqram materialı testlərdə az ola bilərdi, ancaq sonra bildiriblər ki, abituriyentlər testlərin formatında heç bir dəyişikliklə qarşılaşmayacaq.

Daha bir dəyişiklik abituriyentlərin məlumat



kitabçası ilə bağlıdır. Kitabça bu il yalnız elektron variantdadır və çap olunmayıb.

**Vahid milli imtahanlara bu il 39 300-dən çox abituriyent qatılacaq.**

Mətbuat konfransında imtahanların vaxtını və imtahanlarda nəzərə alınacaq tövsiyələri Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Nunu Mitskeviç, Qaçqınlar, əmək, səhiyyə və sosial müdafiə nazirinin müavini Tamar Qabunia, Vahid Milli İmtahanlar Mərkəzinin rəhbəri Sopio Qorqodze, Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze və onun müavini Paata İmnadze birlikdə təqdim edib.

Qeyd edək ki, milli imtahanlara qeydiyyat 2 mart tarixində başlayıb və 30 mart tarixində sona çatmalı idi. Ancaq Təhsil Nazirliyi müddəti 30 aprelə qədər uzatdı.

## 2020-Cİ İLİN VAHİD MİLLİ İMTAHANLARININ KEÇİRİLƏCƏYİ GÜNLƏR VƏ FƏNLƏR:

**6-11 iyul (Birinci sessiya) – Gürcü dili və ədəbiyyatı;**
**6 iyul (Birinci sessiya) – Osetin dili;**
**12 iyul (Birinci və ikinci sessiya) – Tarix;**
**13 iyul (Birinci və ikinci sessiya) – Tarix;**
**14 iyul (Birinci sessiya) – Riyaziyyat;**
**15 iyul (Birinci sessiya) – Riyaziyyat;**
**16 iyul (Birinci sessiya) – Biologiya;**
**Xarici dillər:**
**17 iyul (Birinci sessiya) – Rus dili;**
**17 iyul (Birinci və ikinci sessiya) – İngilis dili;**
**17 iyul (İkinci sessiya) – Fransız dili;**
**18 iyul (Birinci sessiya) – Rus dili;**
**18 iyul (Birinci və ikinci sessiya) – İngilis dili;**
**19 iyul (Birinci sessiya) – Alman dili;**
**19 iyul (Birinci və ikinci sessiya) – İngilis dili;**
**20 iyul (Birinci və ikinci sessiya) –Ümumi qabiliyyət;**
**21 iyul (Birinci sessiya) – Ümumi qabiliyyət;**
**21 iyul (Birinci sessiya) – Ədəbiyyat;**
**22 iyul (Birinci sessiya) – Fizika;**
**22 iyul (Birinci sessiya) – Tətbiqi və təsviri incəsənət;**
**23 iyul (Birinci sessiya) – Coğrafiya;**
**24 iyul (Birinci sessiya) – Kimya;**
**25 iyul (Birinci sessiya) – Vətəndaş təhsili.**

## YENİ DƏRS İLİNİN BAŞLANMASI TƏXİRƏ SALINA BİLƏR



**Gürcüstanda epidemioloji vəziyyətə görə yeni tədris ilinin başlanılmasının təxirə salınacağı istisna edilmir. Bu barədə Gürcüstanın səhiyyə naziri Ekaterina Tikaradze bildirib.**

**Onun sözlərinə görə, sentyabrda da Gürcüstan kimi digər ölkələr də COVID-19-la birgə yaşamalı olacaq. "Biz uşaqları bu proseslərə hazırlamalıyıq ki, onlar təhsili fasiləsiz davam etdirə bilsinlər", - deyə nazir bildirib.**

**O əlavə edib ki, builki qəbul imtahanları zamanı abituriyentlər üçün tam təhlükəsiz şərait yaradılacaq.**

**Qeyd edək ki, ölkədə yeni dərs ili sentyabrın 15-də başlayır.**

## MASKADAN İSTİFADƏ ETMƏYƏN ŞAGİRDLƏR DƏ CƏRİMƏLƏNƏCƏKLƏRMİ?

**Maskadan istifadə etmək qaydasını pozduğuna görə 16 yaşa qədər olan şəxslər cərimələnməyəcək. Bu haqda parlament çoxluğunun üzvü Anri Oxanaşvili bəyanat verib.**

**Büro iclasında deputat Rezo Arveladze cərimələrin maskadan istifadə etməyən uşaqlara da aid olub-olmaması məsələsini qaldırıb. Hüquqi komitə rəhbəri isə açıqlama verib ki, inzibati məsuliyyət 16 yaşdan başlayır və buna görə də 16 yaşlı şəxs məsuliyyətə cəlb olunmayacaq.**

**"İndiki mərhələdə təhsil prosesinə icazə verilmir və hər şey distant rejimə keçib. Bundan irəli gələrək lazım gələrsə biz tənzimləmələrə adaptasiya olmağı maksimum dərəcədə düzgün və hesablanmış şəkildə yerinə yetirəcəyik. Bu hansısa məktəb şagirdinin cərimələnməsi məqsədi daşıyan tənzimləmə deyil. İnzibati məcəllə 16 yaşdan məsuliyyətə cəlb olunmanı tanıyır. Hamı bunu nəzərə almalıdır", - A.Oxanaşvili bildirib.**

***Səhifəni hazırladı: Aynurə ƏLİYEVA***

# ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV VƏ GÜRCÜSTAN



Azərbaycan realist ədəbiyyatının görkəmli nümayəndəsi, ünlü yazıçı, dramaturq, pedaqoq, publisist, ədəbiyyatşünas, diplomat, siyasi-ictimai və dövlət xadimi Əbdürrəhim bəy Haqverdiyevin zəngin və çoxşaxəli həyatının, yaradıcılığının və fəaliyyətinin müəyyən dövrü Gürcüstanla çarpazlaşmışdır. Tale onun ömür yolunu Gürcüstana ilk dəfə 20 yaşında salmışdır. 1890-cı ildə Şuşa real məktəbinin altıncı sinfini bitirdikdən sonra Tiflisə üz tutan böyük ədib növbəti sinfi bu şəhərin real məktəbində başa vurmuş və daha sonra Sankt-Peterburqda ali təhsil almışdır. Tiflisdə orta təhsil aldığı bir illik qısa zaman kəsiyi Ə.Haqverdiyevin teatr dünyasına marağının əsasını qoymuşdur. Bu barədə o, öz tərcümeyi-halında yazırdı: *"Mükəmməl dram teatrı nə olduğunu mən ancaq Tiflisdə anladım. Tiflisdə təhsil edərkən, "Nahaq qan" sərlövhəli bir faciəni ruscadan tərcümə etdim".*

Əbdürrəhim bəy 1891-ci ildə Gürcüstandan ayrıldıqdan sonra da Tiflis ədəbi-mədəni mühiti ilə əlaqəsini kəsməmiş, burada nəşr olunan "Molla Nəsrəddin" satirik-yumoristik jurnalında müxtəlif imzalarla hekayə və felyetonlar çap etdirmişdir. Professor Abbas Hacıyevin araşdırmalarından bəlli olur ki, Əbdürrəhim bəy Tiflis Türk (Azərbaycan) Teatrı ilə daha çox əməkdaşlıq edən yazarlarımızdan olub: "Hətta Ə.Haqverdiyev bir neçə əsərə mükəmməl, realist üslubda bədii quruluş vermişdir. 1907-ci il aprelin 27-də onun rejissorluğu ilə "Dağılan tifaq" (Əbdürrəhim bəyin 1896-cı ildə yazdığı və ona dramaturq şöhrəti qazandıran məşhur faciəsi – F.V-H., N.V.-H.) tamaşaya qoyulmuşdur. Tamaşa təsirli və mənalı keçmiş, tamaşaçılar teztez aktyorları və Ə.Haqverdiyevi səhnəyə çağırıb alqışlamışlar". 1908-ci ildə Tiflisdə yerli türk (Azərbaycan) teatrının aktyorlarının iştirakı ilə Əbdürrəhim bəyin daha bir faciəsi – "Ağa Məhəmməd şah Qacar" faciəsi uğurla səhnələşdirilmişdir. Teatr tariximizə dair araşdırmalardan o da aydın olur ki, Tiflis Türk Teatrının repertuarında görkəmli dramaturqun, həmçinin, "Bəxtsiz cavan", "Pəri cadu", "Ac həriflər", "Yeyərsən qaz ətini, görərsən ləzzətini" və "Köhnə dudman" pyesləri yer almışdır. Teatrın bəzi tamaşalarında Əbdürrəhim bəyin özü də rol alıb aktyor qismində iştirak etmişdir.

1911-ci ildən etibarən Ağdamda yaşayan Ə.Haqverdiyev 1912-ci ilin 1 aprelində Tiflisin Şeytanbazar məhəlləsində sıx yaradıcılıq təmasında olduğu türk (Azərbaycan) teatrı üçün "Auditoriya" (Türk-Azərbaycan Xalq Evi) adlanan ayrıca binanın təntənəli açılış törənində iştirak etmiş, teatrın toplum üçün məziyyətləri barədə məzmunlu nitq söyləmişdir.

Əyalətdə yaşamasına rəğmən, göründüyü kimi, Tiflis sənət aləminin cazibəsindən və təsirindən qopa bilməyən Əbdürrəhim bəy 4 yanvar 1916-cı ildə Ağdamdan Moskvada təhsil alan bacısı oğlu Hüsüyə yazdığı məktubunda Tiflisdə məskunlaşmaq niyyətini dilə gətirirdi:

*"Mən Tiflisə köçmək barədə ciddi düşünürəm, deyəsən, baş tutacaq; Tiflisdə açılacaq müsəlman ruhani seminariyasında mənə müdir müavini vəzifəsini söz veriblər, ümumiyyətlə, orada mənim barəmdə çalışırlar".*

1916-cı ildə Ə.Haqverdiyev həqiqətən Tiflisə yerləşir, ancaq məktubda yazdığı kimi, burada ruhani seminariyasında deyil, "Ümumrusiya şəhərlərinin xəstə və yaralı döyüşçülərə yardım ittifaqı"nın Qafqaz Komitəsində işə başlayır və qeyd olunan komitənin xəbərlər məcmuəsinə («Известия Кавказского комитета / Всероссийский Союз Городов помощи больным и раненым воинам») redaktorluq edir. Bundan sonra Əbdürrəhim bəyin həyat-fəaliyyət yolunun təqribən dörd ili (1916-1919-cu illər) tamamən Gürcüstanla bağlı olur. Həmin dövr Çar Rusiyasının süquta yaxın son və müstəqil Gürcüstan Respublikasının mövcudiyyətinin ilk dönəmlərinə təsadüf edir.

1917-ci il fevral burjua-demokratik inqilabından sonra Ə.Haqverdiyev Tiflis İcraiyyə Komitəsinə və onun mərkəzi şurasına üzv seçilir. Həmin ilin mart ayında isə Xüsusi Cənubi Qafqaz Komitəsinin (OZAKOM) rəhbərliyi tərəfindən Tiflis quberniyasının Borçalı qəzasına komissar (müvəkkil) təyin olunur və qəza mərkəzi Şulaver (indiki Şaumyan qəsəbəsi) kəndində məskunlaşaraq 1 il 3 ay bu vəzifəni icra edir.

Əbdürrəhim bəyin Borçalıda məmurluğu zamanında erməni şovinist siyasətçiləri Çar Rusiyasında, o cümlədən Cənubi Qafqaz quberniyalarında yaranmış hakimiyyət boşluğu və siyasi xaosdan yararlanaraq ermənilərin kompakt yaşadığı əraziləri eyni inzibati-ərazi vahidlərinin tərkibində cəmləşdirilməsi üçün gələcəyə hesablanmış addımlar atmağa başlayır, bu istiqamətdə Tiflisin rəsmi dairələrində mövcud əlaqələrindən istifadə edərək Borçalı qəzasının cənub kəsiminin – Lori (Loru) nahiyəsinin Aleksandropol (Gümrü) quberniyasına birləşdirilməsi üçün imkanlarını sınayırlar. Ermənilərin bu məkrli planı Lorunun qeyri-erməni, xüsusilə də türk əhalisi tərəfindən ciddi təpkilərlə qarşılanır. Bununla bağlı kənd icmalarının toplantıları keçirilir və Tiflisdə yerləşən mərkəzi dövlət strukturlarına, dövri mətbuat orqanlarının redaksiyalarına etiraz məktubları və kollektiv müraciətlər ünvanlanır.


Помимо этого, въ сентябрѣ мѣсяцѣ прошлаго же 1917 года, подъ предсѣдательствомъ уѣзднаго комиссара Абдурахманъ-бека Ахвердова, въ селеніи Джелалъ-оглы было собраніе членовъ 18-ти сельскихъ исполнительныхъ комитетовъ, на которомъ обсуждался вопросъ о присоединеніи лорійскаго района къ александропольской губерніи, и всѣ за исключеніемъ одного мѣстнаго джелалъ-оглинскаго шовиниста, лидера дашнаковъ, Арташеса Авакова. единогласно постановили просить правительство—лорійскій районъ оставить на территоріи

Borçalı qəzasından Aleksandropol quberniyasına torpaq verilməsinə sərt müqavimət göstərənlərin başında qəzanın komissarı Ə.Haqverdiyev gəlirdi. Kənd icmalarının haqqında bəhs etdiyimiz etiraz yönümlü toplantılarına da çox zaman o özü sədrlik edirdi. Belə toplantılardan biri barədə məlumata Borçalı qəzasının Gürcü-Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri K.Svimonişvilinin Tiflisdə rus dilində nəşr olunan "Qruziya" gündəlik siyasi-ədəbi qəzetinin 7 noyabr 1918-ci il tarixli sayında işıq üzü görmüş "Borçalı qəzası və onun tələbləri" sərlövhəli məqaləsində rast gəlinir. Borçalı qəzasının həm ərazisinə, həm də əhalisinin sayına görə nəinki Tiflis quberniyasının, ümumən Cənubi Qafqazın ən iri qəzalarından olduğu, tatarların (Azərbaycan türklərinin) qəza əhalisinin böyük əksəriyyətini təşkil etdiyi vurğulanan məqalədə gürcü müəllif erməni millətçilərinin Loru bölgəsi üzərində iştahası və qriqoryan ermənilərdən başqa, digər yerli əhali qruplarının buna qəti etirazları üzərində dayanaraq yazırdı:

*"Ötən 1917-ci ilin sentyabr ayında qəza komissarı Əbdürrəhman bəy (adı səhv yazılmışdır – F.V-H., N.V.-H.) Haqverdiyevin sədrliyi ilə Cəlaloğlu kəndində 18 kənd icra komitəsinin üzvlərinin toplantısı keçirilmişdir. Bu toplantıda Lori bölgəsinin Aleksandropol quberniyasına birləşdirilməsi məsələsi müzakirə olunmuş və yalnız cəlaloğlulu yerli şovinist, daşnakların lideri Artaşes Avakov istisna olmaqla, hər kəs tərəfindən yekdilliklə Lori bölgəsinin Tiflis quberniyasının tərkibində saxlanması və heç bir vəchlə Aleksandropol quberniyasına birləşdirilməməsi xahişi ilə hökumətə müraciət ünvanlamaq barədə qərar qəbul edilmişdir".*

Komissar Ə.Haqvediyevin sədrliyi ilə 1917-ci ilin 25 noyabr tarixində keçirilmiş fərqli məzmunlu başqa bir toplantı barədə Tiflisin digər rusdilli mətbu orqanı olan "Borba" qəzeti məlumat yayırdı. Bu məlumat Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının (menşeviklər) nümayəndəsi L.O.Elbakyantsın və Borçalı qəzasının Uzunlar kəndinin bir qrup sakininin 1917-ci ilin 17 noyabr tarixində Müəssislər Məclisinə keçirilən seçkilərdə onların kəndlərində baş vermiş qanun pozuntuları ilə əlaqəli şikayət məktubuna əlavə olaraq dərc edilmişdi. Şikayət məktubunda Uzunlar sakinləri seçki zamanı "Daşnaksutyun" partiyasının təmsilçisi A.Kalantaryanın Lori nahiyəsinin digər erməni kəndlərini nümunə göstərərək bir nəfərin öz yaxın qohum-əqrəbasının yerinə də səs verə biləcəyinin mümkünlüyünü iddia etdiyini, nəticə etibarilə Elbakyantsın etirazına baxmayaraq, səsvermədə iştirak edən bəzi şəxslər tərəfindən seçki qutusuna bir neçə bülletenin atıldığını bildirir, seçkilərin nəticələrini ləğv edib qısa müddətdə yeni seçkilərin keçirilməsini tələb edirdilər. Bununla əlaqədar Müəssislər Məclisinə seçkilər üzrə Borçalı qəza komissiyası sədr Ə.Haqvediyevin və komissiya üzvləri – nahiyə müstəntiqi Kaçaryantsın, Çatulovun, Tuçkovun və Elbakyantsın iştirakı ilə qəza mərkəzi Şulaverdə öz iclasını keçirir. İclasda Elbakyantsın və Uzunlar kəndinin sakinlərinin müraciətləri nəzərə alınaraq yeni seçkilər təyin edilir.

Qeyd edək ki, Əbdürrəhim bəy Borçalı qəzasında komissar vəzifəsində çalışarkən Borçalı əsilli tanınmış maarifçi ziyalıları öz yanında işlə təmin etmişdi; əslən qəzanın Faxralı kəndindən olan təhsil xadimi Mirzə Rza Əlizadə onun müavini, qəzanın Kirəc Muğanlı kəndinin sakini, mollanəsrəddinçi yazar-şair Həsən Məcruh (Mirzə Həsən Məmmədov) isə katibi olmuşdur.

*(davamı gələn sayda)*

**Fəxri VALEHOĞLU-HACILAR,**
*tarix üzrə elmlər doktoru*

**Namiq VALEHOĞLU-HACILAR**
*Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi*



# AĞ DEMOKRATİYANIN QARA ÜZÜ

Sahib MUSTAFAOĞLU
sahib1975.sm@gmail.com

Covid-19 pandemiyası qlobal problemə çevrildikdən sonra dünyada baş verən ictimai-siyasi proseslər arxa plana keçdiyini rahatca söyləmək olardı. Lakin ABŞ-da qaradərili Corc Floydun polis tərəfindən qəddarcasına şiddətə məruz qalaraq həyatını itirməsi ümumi sükutu alt-üst etdi. Qaradərilinin polis tərəfindən qətlə yetirilməsinə etiraz əlaməti olaraq keçirilən aksiyalar ABŞ-ın bütün ştat və şəhərlərində tüğyan etməkdədir. Artıq hadislərin axarı ümumi nəzarətdən çıxmış, ölkə xaos uçurumuna yuvarlanmışdır. Etirazçılar ticarət obyektlərini qarət edir, hökumətə qarşı kütləvi itaətsizlik nümayiş etdirirlər. Hazırda ABŞ-da baş verən proseslərin süjeti Hollivud studiyasında lentə alınmış "Böyük fəlakət"dən sonrakı mənzərəni xatırladır. Vəziyyətin bu həddə çatmasını araşdırmaq üçün amerikan xalqının etnogenezisinin formlaşması prosesini təftiş etmək yanlış yanaşma olmazdı.

İlk öncə vurğulamaq lazımdır ki, "Yeni qitə"ni yeni sakinləri yerli qırmızıdərililəri kütləvi surətdə qətlə yetirdikdən sonra aqrar sektorda işçi resursuna olan tələbatı XVI-XVII əsrlərdə Afrikadan qul qismində gətirilmiş 10 milyon qaradərilinin hesabına təmin etmişdilər. Təbii ki, qul olduqlarına görə Afrika mənşəli qaradərililər ağır işgəncələrə məruz qalaraq istismar edilirdilər. Müasir ABŞ tarixinin qara ləkəsi hesab edilən quldarlıq münasibətlərini 1862-ci ildə hər nə qədər prezident Avraam Linkoln (1861-1865) ləğv etsə də, irqi ayrıseçkilik prosesi uzun müddət davam etmişdir. İnsan hüquqları və demokratik dəyərlərin ali zirvəsini özündə təcəssüm etdirən və bu yöndə digər ölkələrə özünü örnək göstərən bir dövlətdə real mənzərə deyilənlərlə ziddiyət təşkil edir. Bəs XXI əsrdə kökündə rasizm elementləri bariz şəkildə görünən hazırkı böhranın arxasında nələr gizlənir? Suala cavabı bugünkü amerikan cəmiyyətində sıravi ağdərilinin qaradərililərə qarşı münasibətində, təfəkkürünün psixoloji stereotiplər əsasında formalaşmasında axtarmaq lazımdır. Çünki 1970-ci illərədək ABŞ cəmiyyətində seqreqasiya (etnik və irqi ayrıseçkilik) hökm sürmüşdür. Qaradərililərin ictimai nəqliyyatdan istifadə, məktəb, xəstəxana və s. kimi elementar sosial-ictimai tələbatları məhdud çərçivə daxilində mövcud olmuşdur. Belə neqativ hallara qarşı mübarizədə amerikan polisi qaradərililərə qarşı daim şiddət tətbiq etmiş, hüquq müdafiəcisi Martin Lüter Kinq 1968-ci ildə qətlə yetirilmişdir. Tutarlı amerikan tədqiqat institutlarının apardığı araşdırmaları sübut edir ki, ABŞ-da hazırda da iş yerlərində irqi ayrıseçilik hallarına tez-tez rast gəlinir. Belə ki, işə qəbul zamanı ağdərililərin şansı qaradərililərlə müqayisədə iki dəfə artıqdır. Digər tərəfdən, Federal Tədqiqatlar Bürosunun (FBI) hesabatına əsasən, ABŞ-da hər il min nəfərə yaxın insan polis gülləsinə tuş gələrək qətlə yetirilir. Burada da qaradərililərin bəxti gətirməyib. Asayiş keşikçiləri tərəfindən öldürülənlərin 3/4-nün qaradərili və ya latın amerikan kökənli olduğu müəyyən edilmişdir. İlk baxışdan belə təəssürat yaranmamalıdır ki, ağdərililər qaradərililərə nisbətən daha çox "qanunsevər"dirlər. Yenə də, aparılmış araşdırmalar göstərir ki, qaradərililər uzun zaman çərçivəsində psixoloji təzyiqlərə məruz qaldıqlarından, onlar polislə təmas zamanı psixoloji gərginlik keçirir və qeyri-adekvat hərəkətlərə yol verirlər. Təəssüf ki, belə situasiyalarda rəsmi orqanlar atəş açmaqdan çəkinməmək haqda polisə təlimatlar verir.

"Amerikan həyatı" çoxlarına xəyal kimi gəlsə də, demək ki, ABŞ demokratiyasının da çatışmamazlıqları vardır. Dünyaya demokratiya "transfer" edən bir ölkədə bu cür hadisələr yolverilməzdir. Axı, insan hüquqlarının aliliyindən söhbət gedərkən biz ABŞ-ı Əfqanıstanla müqayisə etmirik ki.

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## QARAGÖZ TEATRI

*(əvvəli ötən sayda)*



"Nağıl" – bu səyyar teatr yalnız yay ayları mövcud idi.

Qışda?

Qışın uzun gecələrində onların meydanı qəhvəxanalar idi.

Mən Şeytanbazar qəhvəxanalarında əlində saz gəzən türk aşığını görmüşəm ki, bu da iştirakçılara bütün iki-üç saat ərzində Şərqin hansısa qəhrəmanının sərgüzəştlərini ara vermədən nəql edirdi ("Koroğlu", "Aşıq Qərib", "Şah İsmayıl" və s.). Paralel olaraq yuxarı mərtəbələrin qəhvəxanalarında miniatür tamaşalar göstərilirdi ki, bunu da camaat bu gün də "Qaragöz" teatrı adlandırır.

Qaragöz tamaşalarının xalq xarakteri olduğundan qısaca olaraq bu teatra da toxunsam pis olmaz.

Qaragöz kim idi və bu cür janr teatrı hardan gəlir.

Qaragöz barədə belə bir əfsanə mövcuddur: Sultan Muradın (Orxan Qazinin – M.M.) zamanında Bursada nəhəng came inşa olunurdu. Saysız-hesabsız bənna çalışırdı, lakin iş nədənsə yavaş templə gedirdi. Müəyyən olunur ki, kimsə Qaragöz və Hacivat öz gülməli əhvalatları ilə bənnaları əyləndirir və camenin inşasının başa çatdırılmasına mane olurdular. Qəzəblənən sultan Qaragözün və Hacivatın boynunun vurulmasını əmr edir. Sərəncamı həyata keçirdilər, lakin camenin inşasının başa çatdırılmasına hər halda heç bir çarə olmadı. Sultana isə Qaragözün kölgəsi dinclik vermirdi. Narahatlıq hissi keçirirdi, əzab-əziyyət çəkirdi. Nəhayət, sultan şeyxi yanına çağırtdırdı və xahiş etdi ki, bu qəm-qüssəni və vicdan əzabını bir təhər canlandırsın. Fərasətli şeyx Qaragöz və Hacivatı canlandırmaq niyyətində oldu. Bu iki baməzənin hərəkət edən fiqurlarını dəridən kəsdi, onlara sap bağladı və dartılmış kətan üzərində oynatdı, şeyxin özü isə pərdənin arxasında dayanıb Qaragözün dili ilə sultana məhz elə bu qəhrəmanların qurbanı olduqları həmin baməzə əhvalatı söyləyirdi... Lakin şeyx qəflətən fiqurları gizlədib pərdə arxasından çıxdı və sultana belə bir məlumat verdi: "Həyat, ey böyük hökmdar, qısa nağıldır. Hər bir canlı məxluq Qaragözun və Hacivatın kölgəsi kimi bir xəyal olaraq görünəcəklər, şimşək kimi çaxacaqlar və yox olacaqlar. Məgər, böyük hökmdar, bunun üçün əzab çəkməyə və bu qədər qəm-qüssəyə qərq olmağa dəyərmi?" Əfsanə vurğulayır ki, şeyx bu tamaşası ilə sanki xalqın sevimli qəhrəmanlarını canlandırmışdır.

Bax, vətəni də Osmanlı olan və demək olar ki, bu günə qədər Tiflisin Şeytanbazar qəhvəxanalarında qorunub saxlanılan bu kiçik kölgələr teatrının əsası belə qoyuldu.

Sonra bu cür tamaşaların məğzi daha da formalaşdı və pyes müxtəlif personajlarla zənginləşdi. Qaragöz və onun köməkçisi Hacivatdan başqa ekranda dini şəxslər, qadınlar, quldurlar və sairlər göründülər. Qaragöz teatrının repertuarı barədə bir az təsəvvürümüzün olması üçün bir pyesin məğzini misal gətirəcəyəm:

Molla, dərzi və dülgər dostlaşdılar və yola çıxdılar. Yolda axşama düşdülər. Onlar quldurlardan qorxduqlarından qərara gəlirlər ki, yatmaq zamanı növbə ilə biri yatmayıb keşik çəksin. Püşk atırlar, əvvəlinci növbə dülgərə düşür. Yuxu bunu basmasın deyə durub qoz ağacından bir qadın müqəvvası yondu. Dərzinin keşikçilik növbəsi yetişir və o da öz müqabilində bu qadın müqəvvasına libas tikdi. Növbə dini şəxsə çatanda o da öz yoldaşlarından geri qalmadı, dua etməyə başladı... Bu qadına nəfəs verildi, canlandı. Bu üç yoldaş arasında mübahisə baş verdi. O deyir mənimdir, bu deyir mənimdir. Bu qadın kimə düşür? – Bax, tamaşaçılar arasına atılan bu cür tapmacadır. Bu kütləvi zehni təlimdə bütün camaat iştirak edirdi.

Nəhayət, bu "Kölgələr teatrı" özünün gündəlikliyi ilə satira teatrına çevrildi. Burda hamıya və hər şeyə gülürdülər: yüksək və alçaq zümrəyə, güclüyə və zəifə, cəmiyyətə və fərdə, bir sözlə, bu "vodevilə çevrilmiş dramlar" bütün aktual məsələləri özünəməxsusluqla işıqlandırırdı.

Bu cür teatrın səhnəsini təxminən belə təsəvvür etmək olar: Salon tamamilə qaranlıqlaşırdı. Səhnə boyu dartılan ağ kətanda nəsə dumanlı kölgələr görünürdülər. Bu kölgələr tədricən müəyyən şəkil alırdı, sonda isə danışan, rəqs edən, çomaqları yellədən və sair miniatür camaat aydınca görünürdü. Lakin onlar gerçək oyunçular deyildilər! Bu dartılmış kətanda dəvə dərisindən və ya kartondan kəsilib düzəldilmiş hərəkətdə olan fiqurları göstərirdilər. Eyni zamanda bu fiqurları hərəkətə gətirən şəxs pərdənin arxasında durub iştirakçılara hərəkətdə olan şəxslərin sərgüzəştini nəql edirdi, sual-cavabın lazım olduğu yerdə isə danışıq tərzini dəyişirdi və sair. Bir sözlə, əfsanə qəhrəmanı Qaragözün adını daşıyan bu bir nəfər bütün personajların yerinə özü danışırdı. Qadın səsi ilə, kişi səsi ilə, gur səslə, zil səslə. Bu "təqlid" elə artistcəsinə ifa edilirdi ki, bütün qəhvəxana heyrətə gəlirdi və çox hallarda tamaşalar doqquz gün davam edirdi.

"Qaragözün kölgələri" ta qədimdən xalqın estetik zövqünün vasitəsinə çevrilmiş teatr sənətinin donuq və primitiv təsviridir. Bu tamaşanın ilkin bir növ ilahilik siması sonralar itdi və ümumi əyləncəyə, "müqəvvaların" da teatrın uzun tarixində öz yerlərini tutmaq hüquqlarının olduğu ilk xalq teatrına çevrildi.

*(davamı gələn sayda)*

*Gürcü dilindən tərcümə:* **Mirzə MƏMMƏDOĞLU**

## CARİ İLDƏ MARNEULİDƏ 8 MƏKTƏB TİKİLƏCƏK, 3 MƏKTƏB TAM BƏRPA OLUNACAQ



Gürcüstanın baş nazirinin müavini, regional inkişaf və infrastruktur naziri Maia Tskitişvili və Kvemo Kartli qubernatoru Şota Rexviaşvili mərkəzi və yerli hakimiyyət nümayəndələri ilə birgə Marneuli bələdiyyəsində məktəblərin tikinti-bərpa işləri ilə tanış olublar.

Bələdiyyə miqyasında 8 ictimai məktəbin tikintisi və 3 məktəbin tam bərpası həyata keçiriləcək. Yeni ictimai məktəblər Xuldərə, Şulaveri, Candar, Tsopi, Qasımlı, Çanaxçı, Kürtlər, Sabirkənd kəndlərində tikiləcək. Kəpənəkçi, Qullar və Qızılhacılı 1 saylı ictimai məktəbində isə bərpa işləri aparılacaq. Təhsil infrastrukturunun tikinti-bərpa işləri Bələdiyyə İnkişaf Fondundan maliyyələşəcək. Tikinti və bərpa prosesi Səhiyyə Nazirliyinin hazırladığı tövsiyələrə riayət etməklə aparılır.

Qeyd edək ki, Bələdiyyə İnkişaf Fondu ölkə miqyasında 59 yeni məktəb tikir və 80-dən çox məktəbin tam bərpasını həyata keçirir. Bütün layihələr yeni məktəb standartlarına uyğun olacaq. Layihə çərçivəsində sinif otaqları və laboratoriyalar, tədbir üçün zal, idman meydançası, yeməkxana və başqa vacib infrastruktur yaradılacaq.

## SARTİCALADA YENİ MEYVƏ SAXLAMA MÜƏSSİSƏSİNİN AÇILIŞI OLUB



Kvemo Kartli qubernatoru Şota Rexviaşvili mərkəzi və yerli hakimiyyət və beynəlxalq donor təşkilatı nümayəndələri ilə birgə Sarticala kəndində "Aqrokompleks" şirkətinin yeni meyvə saxlama müəssisəsinin açılışında iştirak edib.

Açılış mərasimində Ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı nazirinin müavinləri Giorgi Xanişvili, İuri Nozadze və Solomon Pavliaşvili, USAID-in Gürcüstandakı missiyasının direktoru Piter Vibler, Qardabani meri Ramaz Budağaşvili iştirak ediblər.

"Aqrokompleks" MMC "Emal və saxlama müəssisələrinin qarşılıqlı maliyyələşdirmə layihəsi"nin benefisiarıdır. Müəssisədə ümumilikdə 2 milyon laridən artıq investisiya həyata keçirilib, onun 600,000 larisi qrantdır, 1, 500 000 lari isə güzəştli aqrokreditdir.

USAID-in kənd təsərrüfatı proqramı çərçivəsində "Aqrokompleks" MMC-nin qarşılıqlı investisiyası ilə (113 000 ABŞ dolları) 1 440 m2 sahədə bina tikilib və rütubət və havalandırmanı tənzimləyən sistem quraşdırılıb.

"Aqrokopmpleks" MMC-nin soyuducu təsərrüfatı müasir ULO (Ultra Low Oxuge) texnologiyası ilə təchiz edilib. Təchizatı USAID-in kənd təsərrüfatı proqramının qrantı ilə (74 786 ABŞ dolları) əldə edib və 10 soyuducu kamera quraşdırılıb. Kameraların ümumi həcmi min tondur. Müasir ULO texnologiyası meyvənin bir ildən sonra da ağacdan yeni yığılmış görünüşü və dəyərini saxlamasını təmin edir.

Müəssisədə 15 nəfər daimi işlə təmin olunub. Şirkət məhsulu yerli bazarda satmağı planlaşdırır.

Tədbir çərçivəsində hakimiyyət nümayəndələri və xarici qonaqlar, "Gələcəyin əsasını qoy" proqramı çərçivəsində 30 ha-da salınmış süfrə üzümü bağlarını nəzərdən keçiriblər. Şirkət yerində suvarma sisteminin qurulması üçün 529,379 lari maliyyə əldə edib və 3,500,000 lari dəyərində güzəştli aqokreditdən yararlanıb.

## MAİA TSKİTİŞVİLİ MARNEULİDƏ OLUB



Gürcüstanın baş nazirinin müavini, regional inkişaf və infrastruktur naziri Maia Tskitişvili Marneuliyə səfər edib. Nazir bələdiyyədə su təchizatı və kanalizasiya sistemlərinin tikintisi prosesi ilə tanış olub.

M.Tskitişvili bildirib ki, Asiya İnkişaf Bankı layihənin maliyyələşdirilməsinə 150 milyon lari vəsait ayırıb. "Layihə gələn il başa çatdırılacaq. Lakin sentyabr ayından etibarən sistemin mərhələli şəkildə işə salınması nəzərdə tutulub", - deyə M.Tskitişvili bildirib.

Hazırkı mərhələdə nasos stansiyalar və rezervuarlar, magistral boru xətləri və daxili şəbəkə, yeni kanalizasiya kollektoru tikilir.

Layihənin başa çatdırılmasından sonra Marneuli və 5 kənd – Tsereteli, Saimerlo, Qızılhacılı, Böyük Bəylər və Kiçik Bəylərin 30 mindən çox sakini 24 saat ərzində içməli su ilə təmin olunacaq. Yeni kanalizasiya sistemi isə 40 min sakin üçün nəzərdə tutulub.

Qeyd edək ki, Marneulidə su təminatı ilə bağlı problem uzun illərdir mövcuddur və rayon əhalisinin 80%-dən çoxu sudan məhdud qrafiklə istifadə edə bilir.

## DMANİSİNİN 8 KƏNDİNƏ İÇMƏLİ SU ÇƏKİLİR



Dmanisi rayonunun 8 kəndinin içməli su ilə təchizatı üzrə layihə həyata keçirilir. İşlərin başa çatdırılmasından sonra Hamamlı, Bəzəkli, Məmişli, Aşağı Oruzman, Yuxarı Oruzman, Dəllər, Vake (Qarakilsə) və Cavaxi kəndləri 24 saat ərzində içməli su ilə təmin olunacaq.

Layihənin ümumi dəyəri 1 068 169 lari təşkil edir. İşlərin bu ilin okyabrında yekunlaşdırılması nəzərdə tutulub.

Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili və Dmanisinin icra başçısı Giorgi Tatuaşvili su təchizatı sisteminin inşası prosesi ilə yerində tanış olublar.

## DMANİSİ BƏLƏDİYYƏSİNİN MƏKTƏBLƏRİNDƏ BƏRPA İŞLƏRİ APARILIR



Kvemo Kartli qubernatoru Şota Rexviaşvili və Dmanisi meri Giorgi Tatuaşvili məktəblərdə bərpa işlərini nəzərdən keçirib. Bələdiyyə miqyasında bir neçə məktəbdə təmir-bərpa işləri aparılır.

İctimai məktəblərdə mövcud olan vəziyyətin yaxşılaşdırılması üçün yerli büdcədən 361 790 lari dəyərində işlər həyata keçiriləcək. İşlər çərçivəsində istilik sistemi, dam örtüyü və sanitar bölmələr qurulur.

İndiki mərhələdə bərpa işləri Qəmərli, Yaqublu, Maşavera və Sarkineti məktəblərində aparılır. Bərpa işləri mərhələli şəkildə bələdiyyənin bütün ictimai məktəblərində həyata keçiriləcək.

## DMANİSİNİN 8 KƏNDİNƏ YENİ STATUS VERİLİB



Dmanisi rayonunun mərkəzi və 8 kəndinə yüksək dağlıq yaşayış məntəqəsi statusu verilib. Bununla bağlı ölkənin "Yüksək dağlıq bölgələr" haqqında qanununa dəyişikliklər edilib.

Kənd yaşayış məntəqələrinə Didi Dmanisi, Patara Dmanisi, Tnusi (Dunus), Ktsia, Vardisubani, Yaqublu, Maşavera və Pantiani (Armudlu) daxildir.

Yeni status alan 9 yaşayış məntəqəsinin 5 733 sakini dövlətin təqdim etdiyi bir sıra xüsusi güzəştlərdən faydalana biləcək. Bu güzəştlərə pensiyaların artırılması, sosial ödənişlər, kommunal tariflərin azaldılması və s. daxildir.

*Məlumatlar bələdiyyələrin rəsmi veb səhifələrindən götürülüb*
*Gürcü dilindən çevirən: Aynurə Əliyeva*

İCTİMAİ QƏZET yeni_yol@mail.ru იენი იოლი საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUN 2020-Cİ İL №006 (110)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# YENİ KORONAVİRUS NƏDİR? (COVID-19)

## VALİDEYNLƏR, TƏRBİYƏÇİLƏR VƏ MARAQLANAN ŞƏXSLƏR ÜÇÜN TÖVSİYƏLƏR



COVID-19 koronavirusun yeni ştammıdır və ilk dəfə 2019-cu ildə Çində, Vuhan əyalətində insanlar arasında yayılması qeydə alınmışdır ki, bugünkü vəziyyətlə dünyanın 100-dən çox ölkəsində aşkar edilmiş, o cümlədən Gürcüstanda da yoluxmanın bir neçə halı qeydə alınmışdır. Səhiyyə ekspertlərinin narahatçılığına səbəb olan yeni virus haqqında informasiya qıtlığı və onun ağır xəstəliyə səbəb olması və pnevmoniyanı inkişaf etdirməsidir.

**COVID-19 necə yayılır?**

Virus yayılır:

- Hava-damcı yolları ilə – öskürəklə, asqırma ilə;
- Gözə, ağıza və buruna çirkli əllə toxunmaqla;
- Xəstələrlə sıx əlaqə ilə – toxunma, əl verməklə;
- Nadir hallarda fekaliyalarla əlaqə ilə.

**COVID-19 üçün səciyyəvi simptomlar hansılardır?**

- COVID-19-un simptomları yüksək temperatur, öskürək və təngnəfəslikdir; hərçənd simptomsuz da davam edə bilər;
- Bəzi hallarda daha ağır davam edə bilər və pnevmoniya yaxud da təngnəfəsliyi inkişaf etdirə bilər;
- Əldə olunan məlumatlara əsasən, COVID-19-a yoluxan xəstələr arasında simptomların aşkar edilməsi 2-14 gün ərzində baş verir.

**COVID-19-a yoluxma riski altında kim ola bilər?**

- COVID-19-un yüksək yayıldığı arealda yaşayan və ya ora səyahət edən şəxslər;
- Xəstəliyə yoluxmuş şəxslərlə yaxın təmasda olan şəxslər;
- Əldə olan məlumatlara əsasən, qocalar və xroniki xəstəlikləri olan (məsələn, diabet, ürək-qan-damar və respirativ (tənəffüs yolları) xəstəlikləri və s.) şəxslər yüksək risk altındadırlar.

**Uşaqlar COVID-19 xəstəliyinə yoluxurlarmı?**

- Virus yeni olduğuna görə, hələlik onun uşaqlar və ya hamilələr üçün nə dərəcədə təhlükəli olmasına dair kifayət qədər məlumat yoxdur. Mövcud məlumatlara əsasən, istənilən yaşda şəxslər virusa yoluxa bilərlər, amma uşaqlar arasında yayılma nisbətən aşağıdır.

Uşaqlar arasında xəstəliyin fəsadları çox nadirdir, əksər hallarda qocalar və xroniki xəstəlikləri olan (məsələn, diabet, ürək-qan-damar və respirativ xəstəliklər və s.) şəxslər arasında qeydə alınır.

**Uşaqlar arasında COVID-19-a bənzər simptomlar müşahidə olunarsa nə etmək lazımdır?**

- Tibbi xidmətə müraciət edin. Amma unutmayın ki, qrip mövsümündə yüksək temperatur və öskürək kimi COVID-19 simptomları qrip və ya sadə soyuqdəymə zamanı da müşahidə olunur və bunlar daha çox yayılmışlar.

Əl və respirator gigiyena qaydalarına əməl edin. Əlləri müntəzəm yumaq lazımdır və əmin olun ki, uşağa təqvimlə müəyyən edilmiş bütün peyvəndlər edilmişdir, çünki uşaq başqa virus və bakteriya infeksiyasından qorunmalıdır!

- Qrip və başqa respirator infeksiyaları halında olduğu kimi, sizdə və ya uşağınızda simptomlar müşahidə olunursa, dərhal həkimə müraciət edin, ictimai yerlərdən (iş yeri, məktəb, ictimai nəqliyyat və s.) uzaq olun ki, infeksiya digərlərinə ötürülməsin.

**Uşağı bağçadan və ya məktəbdən saxlamaq lazımdırmı?**

- Əgər uşağınızda simptomlar müşahidə edilirsə, tibbi yardım üçün müraciət edin və həkimin verdiyi göstərişlərə əməl edin. Əks təqdirdə, qripəbənzər digər respirator infeksiyaları zamanı olduğu kimi uşağınız simptom nümayiş etdirdiyi müddətdə onun evdə dincəlməsi üçün şərait yaradın və infeksiyanın digərlərinə ötürülməsinin qarşısını almaq üçün ictimai yerlərdən uzaq olun.
- Əgər uşağınızda hərarət və ya öskürək kimi simptomlar müşahidə edilmirsə, və ya səhiyyə orqanlarının uşağınızın məktəbinə aid müvafiq rəsmi tövsiyəsi və ya xəbərdarlığı yoxdursa, yaxşı olar ki, onun məktəbə getməsini təmin edəsiniz.
- Uşaqlarınıza tərbiyə ocaqlarında, məktəbdə və başqa yerlərdə əl və respirator gigiyena qaydalarına əməl etməyi öyrədin.

**COVID-19 müalicə olunurmu?**

- Hazırkı mərhələdə COVID-19-un qarşısının alınması və müalicəsi üçün spesifik müalicə vasitəsi yoxdur. Amma virusa yoluxmuş insanlara xəstəliyin ağırlıq dərəcəsinin nəzərə alınması ilə müvafiq tibbi xidmət göstərilir. Preparatın hazırlanması üçün tədqiqatlar davam etdirilir.

**Antibiotik COVID-19-un prevensiyası və müalicə vasitəsi ola bilərmi?**

- Xeyr, antibiotik viruslara təsir etmir. Antibiotik bakteriyaları məhv edir. Müvafiq olaraq, onun qarşısının alınması və ya müalicəsi məqsədilə antibiotikdən istifadə edilməməlidir. Antibiotikdən bakteriya infeksiyası zamanı istifadə etmək olar.

**COVID-19 xəstəliyinə sizin və ətrafınızdakı insanların yoluxma riskini necə azaltmaq olar?**

COVID-19-dan özünü qorumaq üçün qrip və başqa respirator xəstəliklərin qarşısının alınmasının ümumi tövsiyələrinə əməl etmək lazımdır:

**# 1. Əllərinizi tez-tez yuyun** – sabun və su ilə, yaxud spirt tərkibli məhlulla əlləri yumaq əllərin səthindəki virusları məhv edir.

Əlləri sabunla ən azı 20 saniyə ərzində yuyun və ya spirt tərkibli məhlulla ovuşdurun:

- Yemək hazırlayana qədər və sonra.
- Yemək yeməzdən öncə və sonra.
- Ayaqyolundan istifadə etdikdən sonra.
- Xəstə ilə təmasdan əvvəl və sonra və s.

**# 2. Tənəffüs sisteminin gigiyenasına riayət edin:**

- Öskürən və asqıran zamanı ağız və burnunuzu birdəfəlik salfetlə və ya bükülmüş dirsəyinizlə örtün
- Salfeti istifadə edən kimi bağlı zibil qutusuna atın və əllərinizi sabun və su ilə yuyun, yaxud spirt tərkibli məhlulla təmizləyin.
- Xəstəlik zamanı tibbi maskadan istifadə edin və kütləvi yerlərdən uzaq olun.
- Səhiyyə mütəxəssisləri tərəfindən çatdırılan preventiv tədbirlərə əməl edin.

**# 3. Təhlükəsiz məsafə saxlayın:**

- Özünüz və başqa insanlar, xüsusilə də respirator simptomlara (öskürək, asqırma, qızdırma) malik insanlar arasında ən azı 1 metr məsafə saxlayın.
- Respirator infeksiyaya, o cümlədən COVID-19 infeksiyasına yoluxmuş insan asqırarkən və öskürərkən virusdan ibarət damcılar yayır. Siz bu zaman ona çox yaxın məsafədə olsanız virusu nəfəsinizlə qəbul edə bilərsiniz.

**# 4. Çirkli əllərlə gözlərinizə, burnunuza və ağzınıza toxunmayın** – çünki əllərinizlə virusla çirkləndirilmiş səthlərə toxunmuş ola bilərsiniz.

**# 5. Yalnız termal cəhətdən yaxşı işlənilmiş və qaynadılmış ət və süd məhsullarını qəbul edin.**

**# 6. Yaşadığınız və işlədiyiniz mühitin havasını tez-tez dəyişdirin,** nəm təmizlik edin, əşyaları və onların səthlərini dezinfeksiya edin.

Mövcud məlumata əsasən, yeni koronavirus müxtəlif materialdan ibarət əşyaların üzərində bir saatdan bir neçə günə kimi yaşaya bilir. Buna görə də, əşyaların səthlərini (məsələn, iş və yazı masalarını, əşyaları [telefon, klaviatura]) müntəzəm olaraq təmizləmək məqsədəuyğundur. Sadə dezinfeksiyaedici vasitələr virusu zərərsizləşdirə bilərlər və bundan sonra insanlar xəstəliyə yoluxmurlar.

**# 7. Gərək yoxdursa, səyahətinizi təxirə salın.** COVID-19-un yayılması ilə bağlı vəziyyətə görə, səyahətdən çəkinin, xüsusilə də yüksək risk olan ölkələrə.

**# 8. Sizdə və ya ailə üzvünüzdə respirator simptomlar (hərarət, öskürək və təngnəfəslik) müşahidə olunursa, vaxtında həkimə müraciət edin.** COVID-19-un yayıldığı ölkələrə səyahət etmisinizsə və ya yaxın zamanlarda yüksək riskli ölkəyə səyahət etmiş və respirator infeksiyalar üçün xarakterik simptomları daşıyan şəxslə təmasda olmusunuzsa, o zaman dərhal tibbi xidmətə xəbər verin və ya 112-yə zəng edin.

**Əlavə məlumat üçün zəng edə bilərsiniz:**

1505 (24/7 ərzində – Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınlar, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinə və ya növbəti internet səhifəsinə baş çəkə bilərsiniz: **moh.gov.ge.**

116001 (bazar ertəsi-cümə 10:00-18:00) – Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinə və ya növbəti internet səhifəsinə baş çəkə bilərsiniz: **ncdc.ge;**

Gürcüstan Hökumətinin Koronavirusun Gürcüstanda yayılmasının prevensiya internet səhifəsi: **www.stopcov.ge**

Özünüzün və övladınızın sağlamlığını qoruyun!

Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzi sizə sağlamlıq arzu edir!

*İnformasiya materialları "Etnik azlıqlar arasında koronavirus (COVID-19) haqqında məlumatların yayılması" layihəsi çərçivəsində Gürcüstan Açıq Cəmiyyət Fondu (Open Society Georgia Foundation) tərəfindən tərcümə edilmiş, Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzi tərəfindən hazırlanmışdır.*

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.